Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 240 (2953) ŞƏNBƏ, 20 OKTYABR 2001-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | İNDEKS 0001 | Qiyməti 1000 manat

# ŞƏHİDLƏRİN ƏZİZ XATİRƏSİNƏ EHTİRAM

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ölkəmizin milli Müstəqillik günü - oktyabrın 18-də xalqımızın müqəddəs and yerini - Şəhidlər xiyabanını ziyarət etmişdir. Respublikamızın rəhbərinin şərəfinə xiyabanda fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Heydər Əliyev Şəhidlər xiyabanına toplaşan Azərbaycanın dövlət və hökumət strukturlarının rəhbərlərini, xarici ölkələrin Bakıdakı səfirlərini, respublika ictimaiyyətinin nümayəndələrini səmimiyyətlə salamladı.

Azərbaycan prezidenti Heydər Əliyev fəxri qarovul dəstəsinin önündən keçdi.

Azərbaycanın azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş mərd mübarizlərin əziz xatirəsinə ehtiram əlaməti olaraq, xiyabanda ucaldılmış "Əbədi məşəl" abidəsi önünə Azərbaycan prezidenti Heydər Əliyevin adından əklil qoyuldu.

Hərbi orkestrin ifasında respublikamızın dövlət himni əzəmətlə səsləndi.







Xarici ölkələrin səfirləri, beynəlxalq təşkilatların ölkəmizdə fəaliyyət göstərən nümayəndələri prezident Heydər Əliyevə yaxınlaşaraq, Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktının qəbul olunmasının onuncu ildönümü münasibətilə dövlətimizin başçısını ürəkdən təbrik etdilər, səmimi diləklərini bildirdilər, ona cansağlığı, uzun ömür arzuladılar.

Respublikamızın rəhbəri onlara dərin minnətdarlığını bildirdi.

Mərasimdə Milli Məclisin sədri Murtuz Ələsgərov, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, parlament sədrinin və baş nazirin müavinləri, Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov, dini icmaların rəhbərləri iştirak edirdilər.

***AzərTAc***
***Foto***
***Yaşar XƏLİLOVUNDUR***